Xalq qəzeti .- 2023.- 17 fevral.

"Yeni adlar"

# Azərbaycan pianoçusunun Raxmaninov konserti

**2022-ci il dekabrın 29-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində "Yeni adlar" layihəsi çərçivəsində maestro Fuad İbrahimovun rəhbərliyi ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə 2 konsert əsəri səsləndi. Sergey Raxmaninovun "Üçüncü fortepiano konserti"ni istedadlı pianoçu, Prezident təqaüdçüsü, beynəlxalq müsabiqələr laureatı Əli Məmmədov ifa etdi.**

Sergey Raxmaninovun "Üçüncü konserti" klassik musiqi pərəstişkarlarının çox sevdiyi əsərlərdəndir. Konsert başlanmazdan düşünürdüm ki, hər anlamda olduqca mürəkkəb olan bu əsəri ilk dəfə professional səhnədə təqdim edən gənc musiqiçi heç də asan olmayan işin öhdəsindən gələ biləcəkmi? Əli Məmmədovun ABŞ-da "Manhattan School of Music"də professor F.Kevinin sinfində bakalavr və magistr dərəcəsini müvəffəqiyyətlə müdafiə edərək aldığı peşəkar təhsili, parlaq ifaçılıq təcrübəsini təsdiq edən əsərlərin siyahısı onun uğur qazanacağına əvvəlcədən inam yaradırdı. Əli həm də böyük səhnələrdə dəfələrlə çıxış edərək, ifaçılıq təcrübəsi qazanmışdı. Qeyd etməliyəm ki, onun qarşısına qoyduğu məqsədlərə çatmaq üçün nə dərəcədə əzmli, çalışqan və zəhmətkeş olduğunu təkcə başqalarından eşitməmişdim, eyni zamanda onun musiqi-nəzəri fənlər üzrə müəllimi olmuşdum.

Beləliklə, istedadlı pianoçunun uğurlu konsert ifası özünü doğrultdu! Əli öz dərin, təsirli, olduqca sərbəst və intellektual ifası ilə dinləyicilərin qəlbini fəth edərək, bizlərə xoş təəssürat, zəngin duyğu-düşüncə bəxş etdi. Təbiətən kifayət qədər ifaçılıq istedadı olan gənc pianoçu Raxmaninovun nadir lirikasının bədii təcəssümünü yaratmağa nail oldu. Əsl musiqiçi-rəssam kimi o, royal arxasında əyləşərək, sanki, musiqi səslərinin müxtəlif boyaları ilə görkəmli rəssam soydaşlarının emosional rəsm




əsərlərinə bənzər gözəl "təbiət mənzərələri" yaratdı.

Əli Məmmədov bəstəkarın əsas ideyasını həssaslıqla duyaraq, təbiətin gözəlliklərini ehtiraslı hisslərlə qovuşduraraq obrazlı şəkildə əks etdirdi. Əgər Raxmaninov "İkinci konsert"də maksimal dərəcədə solistin və orkestrin partiyasını bərabərləşdirməyə çalışıbsa, "Üçüncü konsert"də fortepiano ön plana keçib. Ona əsas rol həvalə edilib və bütün əsər boyunca bu hiss olunur.

Raxmaninovun virtuoz, lirik-ekspressiv "Üçüncü konsert"ini gənc pianoçu Əli özünəməxsus şəkildə təqdim etdi. Məlumdur ki, təfsir əsas etibarilə ifaçının fərdi xüsusiyyətlərindən və istedadından asılıdır. Solistin ifasında məni təəccübləndirən, hətta heyrətləndirən nə idi? İlk növbədə, onun təfsir sərbəstliyi: Əli heç bir ifaçını təkrarlamırdı, təqlid etmirdi, o, əsəri öz fərdi təxəyyülü nöqteyi-nəzərindən incələyirdi və bu, gözümüz önündəcə baş verirdi. Gənc ifaçının belə sərbəstliyi, fakt etibarilə, öz fərdi "mən"inin axtarışından xəbər verir. Bu, olduqca dəyərlidir. Əminəm ki, o, həmin əsərə mütləq, yenə də müraciət edəcək, hər dəfə bu əsərdə yeni imkanlar, gözəlliklər tapacaq, öz təfsirini ən yüksək səviyyədə təkmilləşdirəcək.

Mübaliğəsiz qeyd etməliyəm ki, Əli Məmmədovun bugünkü nailiyyəti, o cümlədən professional təhsili, kifayət qədər yüksək texniki imkanları, bəstəkarın əsas ideyasını – not işarələrində və simfonik partitura yazısında həkk olunmuş etiraflarını dərindən duymaq və ən mühüm olanı isə bütün bunları dinləyiciyə çatdırmaq bacarığı onun professional inkişafı haqqında belə inamla danışmağa imkan verir. Royalda səsləndirdiyi bu təravətli, bənzərsiz musiqi axınını dinləyən zaman yaranan duyğuları sözlə ifadə etmək qeyri-mümkündür.

Bütün bu deyilənləri konsertdən məmnun qalan dinləyicilərin gurultulu alqışları təsdiq edir. Bu alqışlar həm istedadlı solistin ünvanına, həm onu dəstəkləyən orkestrin ünvanına, əlbəttə ki, həm də maestro Fuad İbrahimovun ünvanına səsləndi. Fuad İbrahimov parlaq istedada malik professional dirijor olmaqla yanaşı, həm də istər solist, istərsə də orkestrin ifaçılarına daim möhkəm dayaq olmağa çalışır.

Lakin konsert gecəsinin qəhrəmanlarının adları bununla tamamlanmır. Böyük minnətdarlıq hissi ilə biz, "Yeni adlar" layihəsinin müəlliflərinə və bu çox əhəmiyyətli, möhtəşəm layihənin uğurla həyata keçirilməsində əməyi olan hər kəsə təşəkkür edirik. "Yeni adlar" layihəsində yeni konsertlər və parlaq uğurlar gözləyirik.

**Kəmalə ŞIXƏLİYEVA,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi**